KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

**Ləman Əli qızı Qasımova**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı***
qasimovaleman1992@gmail.com

# HƏSƏN BƏY ZƏRDABİNİN "ƏKİNÇİ" QƏZETİNİN PARLAQ ZİYASI

***Xülasə:*** *Çar Rusiyasının hegemonluğu altında yaşayan Azərbaycan türklərinin azad yaşamağı üçün çalışan ziyalılar içərisində Həsən bəy Zərdabinin əvəzsiz rolu olmuşdur. O, həyatının hər mərhələsində xalqın maariflənməsi üçün çalışmış, bu yolda qarşısına çıxan bütün çətinliklərlə mübarizə aparmışdır. Həsən bəy Zərdabi ana dilində milli mətbuatın yaradıcısı, Azərbaycanda teatr və xeyriyyə cəmiyyətinin qurucusu, pedaqoq, ictimai-siyasi xadim və bir çox xüsusiyyəti özündə cəmləşdirən şəxsdir. O, daima təhsil, qadın hüquqları uğrunda çalışmış, saxta din adamlarına qarşı çıxmışdır. Öz yenilikçi fikirlərini "Əkinçi" qəzeti vasitəsilə xalqa çatdırmış, mədəni oyanışın başlanğıcında mühüm rol oynamışdır.*

***Açar sözlər:*** *Həsən bəy Zərdabi, "Əkinçi" qəzeti, milli mətbuat.*

**Laman Ali gizi Gasimova**

**The bright light of Hasan bey Zardabi's newspaper "Ekinchi"**

***Abstract:*** *There are important role of Hasan bey Zardabi between elites who do the best to live liberal of Azerbaijan Turkish under enthrallment Russian. He did the best to impart of knowledge of his community in his every stage of life, struggled all difficulties that is facing in this approach. Hasan bey Zardabi is foundation of national Fleet Street in Azerbaijan language, creator of theater and charity, pedagog, public-political representative and a person who assimilated a few features. He always struggled for education, female laws, opposite of fake religious people, cruelty he was supporter of underdog. He made imform the community her innovative notions through "Ekinchi" newspaper and so he had important role starting of cultural renaissance.*

***Key words:*** *Hasan bey Zardabi, "Ekinchi" ("The Cultivator") newspaper, national press.*

**Ляман Али гызы Гасымова**

**Яркий свет газеты Гасан бека Зардаби "Экинчи"**

***Резюме:*** *Гасан бек Зардаби сыграл незаменимый роль среди интеллигенции, стремящиеся к свободному существованию азербайджанских тюрков, живущих под гегемонией царской России. Он работал для просвещения своего народа, на каждом этапе своей жизни и боролся со всеми трудностями, с которыми сталкивался на своем пути. Гасан бек Зардаби является создателем национальной прессы на азербайджанском языке, основателем театра и благотворительного общества в Азербайджане, педагогом, общественно-политическим деятелем и человеком, сочетающим в себе многие черты. Он всегда работал над образованием, правами женщин и поддерживал угнетенных против ложных религий и угнетения. Свои новаторские идеи он доносил до народа через газету "Экинчи" и таким образом сыграл важную роль в начале культурного пробуждения.*

***Ключевые слова:*** *Гасан бек Зардаби, газета "Экинчи" («Пахарь»), национальная пресса.*

Həsən bəy Zərdabi Azərbaycan xalqının rifahı, maariflənməsi üçün çalışan və bu yolda ön sıralarda yer alan ziyalıdır. Təbiətşünas alim, publisist, müəllim kimi tanınan Həsən bəy eyni zamanda teatr yaradan şəxs, "Cəmiyyəti Xeyriyyə"nin qurucusu, milli mətbuatımızın banisidir.

Həsən bəy Zərdabi ana dilində qəzet nəşr etmək fikrinə hələ 1868-ci ildə Qubada mahal məhkəməsinin katibi işlədiyi dövrdə düşmüşdü. Lakin Çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş senzura haqqında qəti qanundan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həmin dövrdə çar imperiyasının təzadlı siyasətindən bəhrələnən ermənilər tərəfindən 17 adda qəzet çap edilirdi. Müəyyən dairələr və eləcə də ermənilər türk dilində qəzetin çap edilməsinə imkan vermək istəmirdilər. Həmçinin çar idarələrindəki süründürməçilik və hərc-mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Zərdabinin rəsmi orqanlara ilk müraciəti 12 aprel 1873-cü ildə oldu. Lakin qəzet nəşri üçün müəyyən maliyyə vəsaiti tələb olunurdu. Böyük Azərbaycan maarifçisi Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı, rus ordusunun general-mayoru Abdulla bəy Bakıxanov tələb olunan maliyyə xərclərini öz üzərinə götürür. Maliyyə vəsaitini əldə etdikdən sonra Həsən bəy Zərdabi qafqazlılara rəğbəti ilə seçilən Bakı qubernatoru Dmitri Staroselskiyə ərizə ilə müraciət edərək qəzet nəşri üçün icazə istədi. Dmitri Staroselski Həsən bəy Zərdabiyə məsləhət görür ki, qəzetin adını "Əkinçi" qoysun. Guya qəzet ancaq əkin və ziraət məsələlərindən danışacaq. Azərbaycan milli mətbuatının əsasını təşkil edən bu mətbu nəşrin adının "Əkinçi" olması şübhəsiz ki, çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Bakı qubernatoru Staroselski Həsən bəyə kömək edir və qəzetin quberniya mətbəəsində çap olunmasına icazə verir. Senzorluğu da qubernator öz üzərinə götürür. Beləliklə, böyük fədakarlıq, 7 illik gərgin mübarizə və çoxsaylı yazışmalardan sonra Həsən bəy qəzetin nəşrinə icazə ala bilir. Rusiya imperiyasının müsəlman əhalisi üçün çap edilən ilk ana dilində qəzet olan "Əkinçi"nin ilk sayı 22 iyul 1875-ci ildə Bakıda qubernator mətbəəsində nəşr edilir [1, s. 27].

Həsən bəy Zərdabi İstanbuldan xüsusi hürufat gətizdirmişdi. "Əkinçi" qəzeti 2 həftədən bir 300-400 tirajla nəşr olunurdu. Həsən bəy qəzetin həm naşiri, həm redaktoru, həm korrektoru, həm də mürəttibi olmuşdur. "Əkinçi" qəzetində Həsən bəy Zərdabi ilə yanaşı dövrün görkəmli maarifpərvər ziyalıları da fəaliyyət göstərirdilər. Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Adıgözəlzadə (Gorani), Gəncəli Hacı Məhəmməd Sadiq qəzetdə yazılar dərc etdirirdilər. Dövrün tanınmış şair və yazıçıları könüllü şəkildə "Əkinçi"nin ətrafında toplanmışdılar.

"Əkinçi" qəzeti nəşrə başladığı zaman 4 əsas şöbədən – "Daxiliyyə", "Əkin və ziraət xəbərləri", "Elm xəbərləri", "Tazə xəbərlərdən" ibarət olmuşdur. "Daxiliyyə" şöbəsində ticarət, dəmir yolları, torpaq məsələləri və məhsuldarlığın artırılması kimi mövzulara yer verilirdi. "Əkin və ziraət xəbərləri" şöbəsində kəndlilərin vəziyyəti, maldarlıq məsələləri, torpağın müasir üsullarla işlənməsi və s. mövzular işlənirdi. "Elmi xəbərlər" şöbəsində elmi yeniliklərlə bağlı yazılar dərc olunurdu. "Tazə xəbərlər" şöbəsi özü də 5 hissəyə ayrılırdı. Birinci hissədə ticarət məsələləri,





Azərbaycanda və Rusiyadakı malların qiymətləri haqqında məlumat verilirdi. İkinci hissədə başda Rusiya olmaqla digər dövlətlərin siyasətləri barədə yazılara yer verilirdi. Üçüncü hissədə Çar hökumətinin fərmanları haqqında məlumatlara, dördüncü hissədə məhkəmələrin vacib məsələlərlə bağlı verdiyi qərarlara toxunulurdu. Beşinci hissədə isə tibbi biliklər, xəstəliklər, xəstəliklərdən qorunmağın yolları və s. haqqında məlumatlar var idi. "Əkinçi"nin 6-cı nömrəsindən sonra qəzetdə "Məktublar" şöbəsi də açıldı və "Məktubat" rubrikası altında məqalələr dərc olunmağa başlandı [1, s. 28].

Həmin dövrdə xalq bir çox mövzuda məlumatsız, ətrafındakı yeniliklərdən xəbərsiz idi. "Əkinçi" xalqı məlumatlandırır və müxtəlif mövzulardan xəbərdar edirdi. Həsən bəy qəzetdə cəhalətə qarşı mübarizə aparır, xalqın haqqını qorumağa çalışırdı. Bu işdə "Əkinçi" qəzetində çalışan məsləkdaşları da ona böyük dəstək olurdular. Onlar istər qəzetdə nəşr olunan yazılarıyla, istərsə də olduqları yerlərdə "Əkinçi"nin xalq tərəfindən oxunmasına səy göstərirdilər. Həsən bəy "Əkinçi" vasitəsilə xalqın haqqını tapdalayan çar məmurları ilə yanaşı, onların cəhalətindən istifadə edən və özlərinə mənfəət yaradan din adamlarıyla da mübarizə aparırdı. O, xalqın qəzet oxumağı vərdiş halına gətirməsi üçün abunəçi sayından 2 dəfə çox nəşr etdirdiyi qəzeti küçələrdə pulsuz payladırdı. Lakin insanlar pulsuz paylandığı halda belə qəzeti oxumaq istəmirdilər. İnsanların bir qismi bunun şeytan işi olduğunu, hətta qəzet oxumağın günah olduğunu deyirdi. Bəziləri isə qəzetdə dini mövzulara yer ayrılmadığı üçün qəzeti oxumaqdan imtina edirdilər.

"Əkinçi" nəşr edildiyi vaxt ərzində 4 səhifədən ibarət olmuşdur. İlk 7 sayı jurnal ölçülərində nəşr olunsa da, daha sonra qəzetin yazarları və mövzuları zənginləşdiyi üçün bundan sonrakı sayları daha böyük ölçüdə nəşr olunur. Böyük ölçüyə keçdikdən sonra qəzet 3 sütuna bölünmüş, şöbələrin adları çərçivədən çıxarılmış, kağızının keyfiyyəti daha da yaxşılaşdırılmışdır. Həsən bəy məhdud imkanlarla daha keyfiyyətli və daha az səhvlərlə qəzet nəşr etmək üçün çox çalışmışdır. O, "Əkinçi"yə ümid yeri kimi baxmış, onu öz övladı kimi görmüşdür. O, daima Azərbaycan evlərinin elmin nuruyla işıqlanacağına inanmışdır. Yeni saylarında qəzetdəki şöbələr daha səliqəli, məqalələr isə daha dolğun olmuşdur. Nəşr olunduğu müddət ərzində "Əkinçi" qəzetində 1100-dən çox məqalə, məktub, xəbər və şeir və s. müxtəlif materiallar dərc olunmuşdur. Qəzetdə 21 müəllifin 200-dən çox yazısı nəşr edilib. "Əkinçi"dəki materialların əksəriyyəti imzasız yazılardan ibarət idi. Bu imzasız yazıların bir qismi Həsən bəy Zərdabiyə aid olmuşdur. Digər qismi isə əsasən tərcümələrdir. Bəzi yazılar isə kim tərəfindən qələmə alındığı məlum olmayan məktublardır.

Dövrün görkəmli maarifpərvər ziyalısı Mirzə Fətəli Axundzadə Həsən bəyin qəzet çıxarmaq fikrini öyrəndikdən sonra daima onun yanında olmuş və onu dəstəkləmişdir. İstər yazılarıyla, istərsə də qəzetin daha çox insana çatması baxımından mühüm fəaliyyət göstərmişdir. Axundzadə eyni zamanda qəzetdə hansı mövzulara daha çox yer verilməsi və qəzetdəki dil məsələləriylə əlaqədar Həsən bəylə öz fikirlərini bölüşürdü. Axundzadə qəzetin dilinə, üslubuna daha çox əhəmiyyət vermiş, yazılarını da bundan sonra qələmə alınacaq digər yazılara bir nümunə kimi yazmışdır. Mirzə Fətəli Axundzadə ilə Həsən bəy Zərdabi arasında qəzet barəsində xeyli məktublaşmalar olmuşdur.

Mirzə Fətəli Axundzadə 21 aprel 1875-ci ildə Zərdabiyə göndərdiyi məktubunda deyirdi: "Göndərdiyiniz elanlardan şeyxülislama və müftiyə-hərəsinə iki nüsxə verdim. Onların hər ikisindən mənə yazdığınız məktubda ifadə etdiyiniz xahişinizi yerinə yetirməyi rica etdim... Mənə göndərilən elanlara gəlincə, onlardan on dənəsini mənim xahişimə əsasən buradakı İran konsulu cənabları qəbul etdilər. Beləliklə, siz on nəfər abunəçinin pulunu orada alacaqsınız. Mən nəzərdə tutmuşam ki, savadlı tanışlarıma təsadüf etdikdə, bu elanlardan onlara təqdim edərək, sizin qəzetinizə abunə olmalarını xahiş edim".

Mirzə Fətəli Axundzadə məktubunda nəşrin qarşısında bir neçə mühüm peşə qaydalarına əməl olunmasının vacibliyini də irəli sürürdü. O, "Əkinçi"nin kiçik bir elanında çoxlu orfoqrafiya səhvləri görüb yazmışdı: "Qəzetimizin şriftindən mən fövqəladə razıyam. Ancaq sizin azərbaycanca məktubları hazırlayan mühərrirdən çox narazıyam. O, Azərbaycan dilini bilmir. Buna görə də kiçik bir elanda bir çox bağışlanılmaz səhvlərə yol vermişdir. Həmin bu mühərriri ərəb qrammatikasını bilən, fars və türk dillərinə bələd olan başqa bir savadlı adamla əvəz etmək lazımdır" [1, s. 34-35].

Mirzə Fətəli Axundzadənin məqalələrindəki əsas mövzu təhsil və cəhalətə qarşı mübarizə olmuşdur. O, dünyəvi elmləri öyrənməyin zəruriliyi, gerilikdən qurtulmağın vacibliyi kimi mövzuları sadə dillə və kəskin şəkildə ifadə edirdi.

Əsgər ağa Gorani "Əkinçi"də dəmiryolları, qəbristanlığa yaxın ərazilərdə su quyularının açılması, fəsillər, ev işləri, yanğın və kitabxanalar kimi mövzularda müxtəlif məqalələr qələmə almışdır. Goraninin "Əkinçi"də nəşr olunan 39 məktub və məqaləsinin əsas mövzusu elmdir. Bu mövzuda yorulmadan yazan Əsgər ağa hər yazısında elmin nə qədər vacib və əhəmiyyətli olduğunu vurğulamışdır.

Gəncəli Hacı Məhəmməd Sadiq qəzetdəki məktub və məqalələrində təhsilin əhəmiyyətini vurğulamışdır. O, "Əkinçi"də dünyəvi elmlərin əhəmiyyəti, şüur və təfəkkür, alim və elmin əhəmiyyəti, Aşura günündə zəncir vurmaq və baş yarmaq adətləri kimi mövzulara yer vermişdir. Əhsənül-Qəvaid əsasən yazılarında yeniliyin əleyhinə çıxanlara cavab verir, dini fanatizmə qarşı çıxır, fikirlərini böyük cəsarətlə ifadə edirdi. Onun yazılarında əsas hədəfi xalqın qəflət yuxusundan oyanmasını istəməyən din adamları, cahil mollalar, köhnəlmiş və zərərli adətlərin davam etməsini istəyən şəxslər idi. O, gəncləri elmə, təhsilə səsləyir, insanlara zərər verən adətlərin ləğv olunmasını istəyirdi.

"Əkinçi"nin ən fəal yazarlarından olan Nəcəf bəy Vəzirov məktəblərdə keçilən dərslərin və kitabların kifayət etmədiyini, bunun şagirdlərə mənfi təsir göstərdiyini bildirirdi. O, cəmiyyətin inkişafı üçün insanın öz-özünü tənqid etməsinin əsas şərt olduğuna inanırdı. Bəzi məqalələrində mollaları, tacirləri və cəhaləti müdafiə edənləri tənqid edirdi. Vəzirovun "Əkinçi"də qız qaçırmaq, məktəblərdəki təlim və tərbiyə üsulları, yeni məktəblərin açılması haqqında məqalələri nəşr edilmişdir.

Seyid Əzim Şirvani daima xalqın gözünü açmağa çalışmışdır. Şirvani qəzeti xalqı cəhalətdən xilas edəcək, təhsilə səsləyəcək, cahillərə qarşı zəfər çalacaq bir vasitə kimi görmüşdür. Onun "Əkinçi"də 8 şeiri və 3 məktubu nəşr olunmuşdur.

Qəzetin 29 sentyabr 1877-ci ildə çıxan nömrəsində 1-ci səhifədə belə bir elan vardı: "Əkinçi" baba naxoşlayıb. Qəzetin gələn nömrəsinin nə vaxt çıxacağını bilmirik". Beləliklə, "Əkinçi" qəzeti öz nəşrini dayandırmağa məcbur olur. Qəzetin 1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə isə 20 sayı işıq üzü görmüşdü ki, bu da cəmi 56 say edir. Qəzetin bağlanmasına bir neçə səbəb göstərilə bilər. Əslində əsas səbəb qubernator Staroselskinin Bakıdan getməsi idi. Digər bir səbəb isə 1877-ci ildə aşlayan Rusiya – Türkiyə müharibəsi və bu müharibədə "Əkinçi" qəzetinin Türkiyəni dəstəkləməsi idi. Başqa bir səbəb isə Azərbaycanlı əhaliyə düşmən münasibəti ilə seçilən yeni Bakı qubernatoru Ruzin idi. Yeni qubernator "Əkinçi"nin fəaliyyətini bəyənmir, burada çap olunan mətnləri daha sərt senzuraya məruz qoyur. Siyasi xəbərlərin qəzetdə nəşrinə icazə verilmir, qəzetin bağlanması üçün yuxarılara "donoslar" yazılırdı. Zərdabinin ictimai-siyasi fəaliyyətindən razı qalmayan Bakı qubernatoru onu mütəmadi surətdə izləyərək siyasi cəhətdən təhlükəli və etibarsız hesab edir [1, s. 42-43].

Bütün bunlarla yanaşı, Nəcəf bəy Vəzirovun Moskvadan göndərdiyi məqalə vəziyyəti daha da pisləşdirir. Vəzirov göndərdiyi məqalədə "Bazarda qəsidələr oxuyaraq xalqı elm təhsil etməyə çağıran bir dərvişdən" bəhs edirdi. Daha əvvəl senzuradan keçən bu yazı, "Əkinçi"də fəaliyyət göstərən erməni Minasovun şikayətinə əsasən yenidən senzuraya məruz qalır. Minasovun şikayətinə görə Vəzirovun məqaləsində əslində başqa şeylər ifadə edilir ki, bu da qanunlara ziddir. Senzura heyəti Zərdabidən bu yazının olmadığı qəzetin yeni sayının nəşrini tələb edir, fəqət o, bunu qəbul etmir. Nəticədə 1877-ci ilin sentyabr ayında "Əkinçi" qəzeti çar hökuməti tərəfindən bağlanır [2, s. 109].

"Əkinçi" qəzeti özünü cəhalətin və cahillərin ən böyük düşməni elan etmişdi. Zərdabi qurtuluş yolunun cəhalətlə mübarizədən, xalqı maarifləndirməkdən keçdiyini ifadə etmişdir. O, bütün pisliklərin təməlini cəhalət olaraq görürdü. Xüsusilə varlıların, bəylərin, çar məmurlarının və bəzi din adamlarının xalqı qorxudaraq qazanc əldə etdiyini göstərən "Əkinçi", xalqı bu şəxslərə qarşı hərəkətə keçməyə dəvət edirdi. Zərdabi və məsləkdaşları təhsilin vacibliyini öz yazılarında daima vurğulamışlar. Müsəlman uşaqlarının təhsili ilə yanaşı, qadınların da mütləq təhsil alması fikrini müdafiə edirdi. "Əkinçi" qəzeti ilk sayından etibarən xalqın qarşısına bir müəllim kimi çıxmış və onlara elmə əsaslanan məlumatlar vermişdir. "Əkinçi" vasitəsilə yayılan yenilikçi ideyalar Azərbaycanda mədəni oyanışın da başlanğıcıdır. "Əkinçi" qəzeti Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında çox əhəmiyyətli rol oynamış, bütün çətinliklərə və təzyiqlərə baxmayaraq öz üzərinə götürdüyü məsuliyyətin öhdəsindən gəlməyi bacarmışdır.

## ƏDƏBİYYAT

1. *Vəliyev (Aşırlı) Akif. Azərbaycan mətbuatı tarixi (1875-1920). - Bakı: - "Elm və Təhsil" nəşriyyatı, 2009. - 296 s.*

2. *Abbaslı Nazilə. Azerbaycan özgürlük mücadelesi. - İstanbul: "Beyaz Balina"* yayınları, 2001. - 335 s.